# ARİF ABDULLAZADƏ POEZİYASININ İDEYA-BƏDİİ XÜSUSİYYƏTLƏRİ


**Xülasə**

Məqalədə XX əsr Azərbaycan ədəbiyyatının 60-cı illər nəslinə mənsub olan şair, nasir, dramaturq, ədəbiyyatşünas alim Arif Abdullazdənin poetik irsinin ideya-bədii xüsusiyyətləri araşdırılmışdır. Araşdırma tərəfimizdən həyata keçirilən genişplanlı tədqiqat işini bir parçası olaraq reallaşdırılmışdır. Qeyd etməliyik ki, Arif Abdullazadənin istər bədii, istərsə də elmi yaradıcılığı barədə dəyərli qələm sahibləri, ədəbiyyatşünaslar müxtəlif xarakterli məqalələrində fikirlərini bildirsələr də, ədibin yaradıcılığının küll halında tədqiq olunduğu irihəcmli araşdırma yoxdur. Məqalə yazılarkən Arif Abdullazadənin şeir və poemalarına, yuxarıda bəhs etdiyimiz məqalələrə, eləcə də elmi-nəzəri ədəbiyyata müraciət olunmuşdur. Altmışıncılar ədəbiyyatı üçün xarakterik olan forma axtarışları, intellektual və fəlsəfi poeziyanın üstünlüyü Arif Abdullazadənin poeziyası üçün də keçərlidir. Ədib məhdud mövzu seçmir. Vətən, doğma yurd, milli kimlik, mənəvi dəyərlər, insan yaşantıları, Yaradan və insan münasibətləri, həyat və ölüm, tənhalıq və təklik Arif Abdullazadə poeziyasında maraqlı poetik dillə oxucuya çatdırılır. Həmçinin şairin poetik istedadı mövzular arasında kəskin fərqin ortaya çıxmasına imkan verməmiş, bəzən bir nümunə daxilində bir neçə mətləbi ustalıqla birləşdirməyə nail olmuşdur. Şairin 60-cı illərdən başlayan ədəbi fəaliyyəti sonrakı onilliklərdə yüksələn xətlə inkişaf etmiş, əsərlərinin mövzu və mündəricəsində nəzərəçarpacaq dəyişikliklər baş vermişdir. Xüsusilə, 80-ci illərdən başlanan milli azadlıq uğrunda mübarizə, Meydan hərəkatı, 1990-cı ilin 20 Yanvar hadisəsi, ermənilərin



ULUSLARARASI TÜRK DÜNYASI ARAŞTIRMALARI DERGİSİ
INTERNATİONAL JOURNAL OF TURKISH WORLD STUDIES
CİLT 6 / SAYI 2 / NİSAN 2023



**Sorumlu Yazar**
**Corresponding Author**

Pakiza ALİYEVA

Azerbaycan Devlet Pedaqoji Ünivürsitesi, Şeki bölümü
aliyeva.pakize.filolog@mail.ru
ORCID: 0000-0003-3769-6198



**Gönderim Tarihi**
**Recieved**
22.12.2022

**Kabul Tarihi**
**Accepted**
24.02.2023

**Atıf**
ALİYEVA, Pakiza (2023). "Arif Abdullazadə Poeziyasının İdeya-Bədii Xüsusiyyətləri", *Uluslararası Türk Dünyası Araştırmaları Dergisi*, (6/2), 135-158.

DOI: 10.59182/tudad.1222744

ARAŞTIRMA MAKALESİ
RESEARCH ARTİCLE

ərazi iddiaları, Qərbi Azərbaycandan olan həmvətənlərimizin dədə-baba torpaqlarından didərgin düşməsi, Qarabağ müharibəsi Arif Abdullazadənin yaradıcılığında əsas xətti – Vətən xəttini təşkil etmişdir. Onun son dövr yaradıcılığında peşmançılıq və kədər notlarının üstünlüyü Azərbaycan ədəbiyyatının həmin zaman kəsiyində tipik durumundan kənarda qalmır. Ənənəvi, çoxlarının müraciət etdiyi mövzularda yazmaq heç bir halda Arif Abdullazadənin poeziyasında təkrarçılıq və yeknəsəqliyə səbəb olmamış, şair özünəməxsus poetik təhkiyəsi ilə lirik və epik poeziya nümunələri yaratmışdır. Sadalanan məsələlərin hər biri məqalədə Arif Abdullazadənin şeir və poemalarından gətirilmə parçalarla əsaslandırılmış, yeri gəldikcə nəzəri ədəbiyyata müraciət olunmuşdur.
**Anahtar Kelimeler:** Arif Abdullazadə, şeir, insan, Vətən, obrazlılıq.

## IDEA-ARTISTIC CHARACTERISTICS OF ARIF ABDULLAZADE'S POETRY

### Abstract

The article examines the ideological-artistic features of the poetic heritage of Arif Abdullazde, a poet, prose writer, dramatist, literary scholar, who belongs to the 60s generation of 20th century Azerbaijani literature. The study was carried out as a part of a large-scale research project carried out by us. It should be noted that although valuable writers and literary critics have expressed their opinions about Arif Abdullazade's artistic and scientific creativity in various articles, there is no large-scale study in which the writer's creativity is studied in its entirety. When writing the article, Arif Abdullazade's poems, the articles mentioned above, as well as scientific and theoretical literature were referred to. The search for form, the superiority of intellectual and philosophical poetry, characteristic of the literature of the 1960s, is also valid for the poetry of Arif Abdullazade. Poet does not choose a limited topic. Motherland, homeland, national identity, spiritual values, human lives, relationship between the Creator and people, life and death, loneliness and solitude are conveyed to the reader in an interesting poetic language in the poetry of Arif Abdullazade. Also, the poet's poetic talent did not allow a sharp difference between the themes to emerge, sometimes he managed to skillfully combine several themes within one example. The literary activity of the poet, which began in the 60s, developed in a rising line in the following decades, significant changes took place in the subject and content of his works. In particular, the struggle for national freedom that began in the 80s, the Maidan movement, the incident of January 20, 1990, the territorial claims of Armenians, the displacement of our compatriots from Western Azerbaijan from their ancestral lands, the Karabakh war formed the main line in Arif Abdullazade's work - the line of the Motherland. . The predominance of notes of regret and sadness in his works of the last period does not go beyond the typical state of

Azerbaijani literature in that time period. Writing on traditional, popular topics did not lead to repetition and monotony in Arif Abdullazade's poetry, the poet created examples of lyrical and epic poetry with his unique poetic inspiration. Each of the listed issues is substantiated in the article with excerpts from Arif Abdullazade's poems, and theoretical literature is referred to as appropriate.

**Key words:** Arif Abdullazade, the poem, human, homeland, imagery.

## Giriş

Şair, nasir, dramaturq, ədəbiyyatşünas alim, tərcüməçi, filologiya elmləri doktoru, professor Arif Abdullazadənin (1940-2020) yaradıcılığı məzmun, ideya, janr və mündəricə baxımından yetərincə zəngindir. Müxtəlif illərdə Arif Abdullazadənin zəhməti və istedadının təcəssümü olan "Arzular", "Könüllərin dünyası", "Hər yerdə, hər zaman", "Ana dünyamız", "Vseqda i vsyudu", "Sevin Azərbaycanı", "Səninlə sənsiz", "Svet Abşerona", "Bəxtimizin kitabı", "Seçilmiş əsərləri", "Ulu Qorqud", "Tövbə duaları", "Qatarla uçmaqdan yorulan durna" şeir kitabları, "Bir ovuc torpaq", "Duyum", "İşıq zolağı", "Sınaq kürəsi", "Qanlı yaddaş" romanları, 80-ci illərin əvvəllərində səhnələşdirilmiş "Evlərin axşamları", "Aqillər" pyesləri, "Şair Cəfər Cabbarlı", "Şairlər və yollar", "Od nə çəkdi...", "Novatorluq və üslub" və digər monoqrafiyaları işıq üzü görmüşdür. O, həmçinin çoxsaylı elmi, elmi-publisistik məqalələr və tərtib kitablarının müəllifidir. Əsərləri müxtəlif dillərə tərcümə olunaraq həm ayrıca kitbalar şəklində, həm də müxtəlif antologiya və toplular daxilində xarici ölkələrdə işıq üzü görmüşdür.

Məqalədə əsas araşdırılan məsələyə keçməmişdən öncə qeyd etmək istərdik ki, Arif Abdullazadə poeziyasının mövzu dairəsi haqqında ayrıca bir məqalə və ya araşdırma olmasa da, bu barədə şairin kitablarına yazılmış ön sözlərdə və ayrı-ayrı müəlliflərin onun haqqında yazdıqları məqalə və xatirələrdə müxtəlif fikirlərə rast gəlmək mümükündür. Alim-şairin istər bədii, istərsə də elmi yaradıcılığı barədə A.Axundov, T.Hacıyev, B.Əhmədov, N.Şəmsizadə, H.Nəsibova, V.Yusifli, K.Əliyev, F.Sadıq və başqalarını yetərincə dəyərli fikirlər söyləmişlər. Ədibin 1991-ci ildə işıq üzü görən "Seçilmiş əsərləri"nə ön söz yazan, Arif Abdullazadənin yaradıcılıq dühasını yüksək qiymətləndirən akademik Ağamusa Axundovun "Nə qədər çətin olsa da, deyim ki, Arif Abdullazadə bizdə layiqli qiymətini almayan şairlərdəndir" qənaətini

dilə gətirməsi onun yaradıcılığının ədəbi-nəzəri fikir tərəfindən lazımi qiymətini almamasını əsaslandırır (Axundov, 1991: 6)

## 1.Arif Abdullazadə yaradıcılığının ümumi xarakteristikası

Keçən əsrin 50-ci illərinin sonlarından mətbuatda imzası görünməyə başlayan gənc şairin ilk şeirlərində az da olsa dövrün tələbinə uyma, ədəbi dəb dalınca qaçma hiss olunur. Lakin çox keçmir ki, A.Abdullazadə lirikasında "hər şeydən yazmaq" ideyası arxa plana keçir. Sovet dövrü Azərbaycan ədəbiyyatını şeir texnikası və üslubiyyat baxımından araşdıran A.Abdullazadə özü üçün bir yaradıcılıq yolu müəyyənləşdirir.

Yaradıcılığına lirik şeirlərlə başlayan Arif Abdullazadə sonrakı dönəmlərdə müxtəlif ədəbi növ və janrlarda qələmini sınasa da, oxucuları arasında ilk növbədə lirik şair olaraq qəbul olunmuşdur. İlk şeirlər kitabı 1964-cü ildə nəşr olunduqdan sonra bir-birinin ardınca "Könüllərin dünyası", "Hər yerdə, hər zaman", "Ana dünyamız", "Vseqda i vsyudu", "Sevin Azərbaycanı", "Səninlə sənsiz", "Svet Abşerona", "Bəxtimizin kitabı", "Seçilmiş əsərləri", "Ulu Qorqud", kitabları işıq üzü görür. Eləcə də mətbuatda və dövri nəşrlərdə şeirləri və məqalələri çap olunur.

Arif Abdullazadənin yaradıcılığını şərti olaraq aşağıdakı kimi qruplaşdırmaqla tədqiqata cəlb edə bilərik: 1)1960-cı ildən 1980-ci ilədək; 2)1980-ci ildən 1990-cı ilədək; 3) 1990-cı ildən ömrünün sonunadək.

Ədibin ilkin dövr yaradıcılığı üçün poeziya xarakterik olub, mövzu seçimində qismən xaotiklik müşahidə olunur, əsasən sərbəst vəzndə yazılan nümunələr üstünlük təşkil edir. 1980-ci ildən sonrakı mərhələdə artıq qələmi poeziyada yetərincə sabitləşən müəllifin müraciət etdiyi bədii nümunələr arasına nəsr və dramatik nümunələr də daxil olur. Eyni zamanda ölüm, tənhalıq və təklik mövzularına müraciət üstünlük təşkil edir. 80-ci illərin sonlarında Azərbaycanın tarixində baş verən keşməkeşli hadisələr, SSRİ-nin dağılması, müstəqillik uğrunda mübarizə, Azərbaycanın dövlət müstəqilliyini bərpa etməsi, ermənilərin ərazi iddiaları, həmvətənlərimizin Qərbi Azərbaycandan və Qarabağdan doğma dədə-baba torpaqlarından didərgin salınması, Qarabağ müharibəsi və torpaq itkisi bütün təəssübkeş ziyalılarımız kimi Arif Abdullazadənin də yaradıcılığında izsiz ötüşmür. Bu dövrdə hələ ilk dönəmlərdə şairin tez-tez üz tutduğu

vətənpərvərlik nümunələrinə millət harayı, yurd həsrəti, nisgil notları da əlavə olunur. Ümumiyyətlə, Arif Abdullazadə daim axtarışda olan bir müəllif hesab oluna bilər. Maraqlı məqamlardan biri bundan ibarətdir ki, ədəbiyyatşünas alim, poetik üslubların ölkəmizdə ilk sistemli tədqiqatçılarından olan Arif Abdullazadə sərt tənqidi mövqeyini sanki öz əsərlərinə münasibətdə də göstərmişdir ki, bunu da əsərlərinin müxtəlif zamanlara aid təkrar nəşrlərində müşahidə olunan dəyişikliklər əsasında görmək mümkündür.

Ədəbiyyata lirik şair kimi qədəm qoyan Arif Abdullazadə poeziyamızda Rəsul Rza və Əli Kərimin poetik üslüblarının davamçılarından biri kimi tanınmışdır. Təbii ki, şair sələflərinin poetik üslubunu sadəcə təqlid yolunu seçməklə kifayətlənməmişdir. Həmçinin ədəbiyyatşünas alim olan A.Abdullazadə adı çəkilən hər iki sənətkarın poetik istedadının xarakterinə dərindən bələd idi və onlarla bağlı məqalə və araşdırmaların müəllifi idi. Fikrimizcə, məhz həmin elmi yanaşma və bələdlik kor-koranə təqlid və bənzərliyə imkan verə bilməzdi. Abdullazadənin şeirlərinə əsaslanaraq belə bir qənaətimizi ifadə edə bilərik ki, onun poeziyası (xüsusilə ilk iki mərhələdə) forma baxımından Rəsul Rza poeziyasına nə qədər yaxındırsa, mövzu və ideyası etibarilə Əli Kərim poetik irsi ilə daha yaxından səsləşir.

**2.Arif Abdullazadənin poeziyasında mövzu seçimi**

Arif Abdullazadənin şeir kitabları arasında konkret tematikalı, hansısa ideya ətrafinda birləşən poetik nümunələrin yer aldığı ayrıca kitabı yoxdur. Bundan çıxış edərək söyləmək mümkündür ki, A.Abdullazadə özü üçün konkret mövzu seçməmişdir, onu XX əsr insanının düşüncələrinə hakim kəsilən bütün mövzular maraqlandırmışdır. Çünki onun qəhrəmanı müasiri olan İnsandır. Abdullazadənin poeziyası mövzuca rəngarəng olub, vətən və yurd sevgisi, insan və dünya, həyat, arzular, ölüm, tənhalıq və s. ətrafinda cəmlənən obrazlı düşüncələrin əksidir. 60-cı illər poeziyası üçün xarakterik olan fikir axını və ideyalar poeziyası ədibin yaradıcılığı üçün də keçərlidir. Akad. Bəkir Nəbiyev şairin "Könüllərin dünaysı" kitabı haqqında yazdığı eyniadlı resenziyasında yazır: "Arif könlündən keçən, fikrini məşğul edən mətləbləri hazır formullar, ştamplar şəklində oxucuya vermir. O, ən yaxşı şeirlərində həyatın bir parçasını, insan münasibətlərinin bir zərrəsini, hadisələrin bir cüzini göstərməyə çalışır, düşünüb-daşınıb nəticə çıxarmağı isə oxucunun öz öhdəsinə buraxır" (Nəbiyev, 1966: 3)

## 2.1.Vətənpərvərlik duyğularının əks olunduğu nümunələr

Bu qəbildən olan nümunələr şairin istər ilkin dövr yaradıcılığı, istərsə də qələminin artıq yetkinləşdiyi dövr üçün xarakterikdir. Arif Abdullazadənin ilk şeirlər kitabı 1964-cü ildə işıq üzü görən "Arzular"dır. Bu kitaba daxil olan nümunələr daha çox kosmopolit düşüncəni və insan varlığının mahiyyətini açamağa istiqamətlənsə də, kitabdakı "Layla" (1962) şeiri başdan-başa Vətənin vəsfidir. İlk baxışda hamıya tanış və missiyası məlum olan ana laylası şairin yozumunda oxucunun gözü qarşısında dəyişir. Şair anasından yuxusu qaçmış gecələrinə son qoymaq üçün layla oxumağını istəyir. Anasının laylası şairi yatırmaq, sakitləşdirmək yerinə daha da oyadır. Əslində şeirdə o zamançün dissident hesab olunacaq məqamlar yetərincədir. Gənc şairin yuxusunu qaçıran nədir? İlk baxışda bu sualın cavabını vermək o qədər də asan deyil. Ana laylası şairin gözləri qarşısında bir-birindən irağ düşən neçə-neçə mahalımız keçir, deməli, şairin dincliyini əlindən alan, yuxusunu ərşə çəkən Vətən dərtdidir:

Ucaldıqca bu nəğmənin
sədaları
Gözlərimdə Mil dolandı,
Muğan keçdi.
Sinəsinə gül-çiçəklər
səpələnmiş
Doğma Azərbaycan keçdi.
Xəzər boyu gur dalğalar
şahə qalxdı.
Göy gölümün göy gözləri
mənə baxdı.
Kür çağladı,
Araz yana-yana axdı.
Səsləndikcə bu təranə,
Göz önümə
ömrüm boyu bir dəfə də

görmədiyim

Təbriz gəldi, Mərənd gəldi,

Başı qarlı Qoşqar gəldi,

Səhənd gəldi... (Abdullazadə, 1964: 28)

Beləliklə, hamının "böyük vətən"dən yazdığı bir zamanda hələ ilk kitabı işıq üzü görən gənc şair məhz "doğma Azərbaycan"dan söz açır, o taylı-bu taylı Azərbaycandan. Ən vacibi isə budur ki, o həmin vətənə qayıtmağın, onu unutmamağın yolunu milli varlığımızın şah nəğməsi olan müqəddəs ana laylası ilə mümkünlüyünü vurğulayır. Vətən beynəlmiləlçilik və şüarçılıqla xilas ola bilməz, məhz damarlarda axan qanı coşduran ana laylası, öz nəğməmiz, milliliyimizdədir xilas. İlk kitabdan başlanan milli kimlik və vətən duyğusunu şair nəinki şeirlərində, həmçinin sonrakı müxtəlif janrlı əsərlərində dəfələrlə dilə gətirir.

A.Abdullazadə "Duyum" (1988) romanında bu mövzuya qayıdaraq yazır: "Yurdun böyüyü-kiçiyi yoxdur. Yurd bir alaçıqdan da ibarət ola bilər" (Abdullazadə, 1986: 17). Və hər nə boyda olsa da, onun sadəcə bir adı var – Vətən. Vətənsə qorunmalıdır. Bu fikir 1989-cu ildə həmvətənlərimiz əzəli torpaqlarında ermənilər tərəfindən qovulmağa başlayarkən qələmə alınmış "Yurd" adlı şeirində belə ifadə olunmuşdu:

...Yurdun böyüyü, kiçiyi,

yaxşısı, pisi olmur,

Yurddur – demək doğmadır,

doğmadır demək Yurddur,

Yurdun Vətən ətirli çiçəyisənsə,

kürrəmizin harasına atılıb qalsan,

onu döyüş bayrağıtək

son anacan əllərindən buraxma,

zaman-zaman öz içindən keçirib

bir dünyaya tanıtdır,

öz içindən, damarından keçir sən,

Yurd nə ələ gələndir,

Yurd nə əldən gedəndir, -

zamanların sellərinin ağzında

dərələşən, dağlaşan,

gündüz olub yaxınlaşan,

gecə olub uzaqlaşan

Yurdun

bircə qarışı da Vətəndir! (Abdullazadə, 2003: 34)

Şairin "Sevin Azərbaycanı", "Ömrüm mənim – Vətənim!", "Odla su arasında", "Bənzərsiz bir hekayət", "Adım, soyum", "Şəhidlik andımız", "Daş yağışı", "Zamanın boyu", "Hələ ki...", "Çeçen olmaq istəyirəm", "Sevgilər" və başqa şeirlərində də şüarçılıqdan qaçmaq, pafoslu danışmaq tənqid olunur, Vətənə sevginin sığallı, ütülü sözlərdə yox, vətəndaşın qəlbinin döyüntüsündə olmağın vacibliyi dönə-dönə dilə gətirilir.

Arif Abdullazadənin şeirlərində bütöv Vətən var - "kəsərsiz bir qılıncla yarıya bölünmüş" Vətən. Həmin şeirlərdə kənardan həsrətlə baxdığımız, adını ehtiyatla dilə gətirdiyimiz əldən getmiş torpaqlarla çağırışla bərabər, tamamilə eyni təəssübkeşliklə yerlibazlıq, məhəlliçilik, vətəni mahallara, bölgələrə bölməyə də qarşı çağırış da səslənir. "Sevin Azərbaycanı" (1970) və "Bənzərsiz bir hekayət" (1987), "Adım, soyum" (1989) kimi şeirləri məhz həmin çağırışların ifadə olunduğu nümunələrdəndir:

...Harda, nə vaxt soruşsalar haralısan,

cavabım bir, sözüm birdir:

Qarabağın dar günündə qarabağlı –

şuşalıyam,

ağdamlıyam,

xankəndliyəm,

bərdəliyəm,

yeri gəlsə bu torpağın hər parçası,

qarışıçün
əl-ayağı zəncirlərə can verməyən
bir dəliyəm.

...... Boy yaşımı, il yaşımı soruşsalar,
dünən, bu gün, sabah adlı
zamanların çaylarından
damla-damla axıb gedən,
tükənməyən bir anam mən,
milləti türk,
doğma yurdu Azərbaycan,
İnsan oğlu İnsanam mən. (Abdullazadə, 2020: 26-27)

90-cı illərin hadisələri, milli azadlıq hərəkatı, soydaşlarımızın doğma ata-baba torpaqlarından qovulması, Qarabağ hadisələri Arif Abdullazadənin şeirlərindəki vətənpərvərlik çağırışlarına yeni çalarlar gətirir. Gün keçdikcə torpaq itkisi, şəhid xəbərləri və didərginlik azalmır və şair yazır:

Torpağımız həmsərhəddi torpağımıza,
Torpağımız həm də səddi torpağımıza,
Torpağımız hələ dərddi torpağımıza,
Qoca dünya özbaşına firlanır hələ. (Abdullazadə, 2020: 30)

Arif Abdullazadənin vətənpərvərlik mövzusunda şeirlərindən söz düşərkən demək olar ki, bütün tədiqatçıların yada saldığı daha bir nümunə var. Bu, həmin illərdə qələmə alınmış "Çeçen olmaq istəyirəm" adlı şeirdir ki, ədib özündən qat-qat güclü Rusiyaya qarşı mübarizə aparan çeçenlərin cəsarətinə hardasa həsəd apararaq yazır:

..gözüm paxıl, sözüm nağıl,
bu şeytanlar dövrəsində,
bu nağıllar ölkəsində
nağıllardan düşüb qalan

bir qara div, bir əjdaha,

bir cin olmaq istəyirəm,

sən dövranın işinə bax...

Türk oğlu Türk ola-ola

Çeçen olmaq istəyirəm. (Abdullazadə, 2003: 26)

**2.2. Milli-mənəvi dəyərlərimizlə bağlı nümunələr**

Arif Abdullazadənin bu qəbildən olan şeirlərində ən çox diqqətdə saxlanılan məsələlər adət-ənənələr, inanclar, mənəvi aləmin tamlığı və ən əsası milli dil məsələsidir. Əslən Azərbaycanın qədim tarixə malik, elm və sənət beşiyi Şəkidən olan şair müxtəlif şeirlərində həmin o qədimlikdən, kökə bağlılıqdan qaynaqlanan bir sıra məqamlara diqqət verir. "Son kişilər", "Dilsiz nə Vətən?!", "Vərdişlər", "Cənnətlik nənəm", "Uşaqlığın kənd toyları", "Yad nəfəslər", "Atalar" və s. şeirləri sözügüedən mövzunun ən yaxşı önə çəkildiyi nümunələrdəndir.

Arif Abdullazadə adətən hazır təqdim olunmuş şablonlar üzərindən yazmır, əksinə müxtəlif qəbul olunmuş anlayışlara yeni anlam verir. "Dilsiz nə Vətən?!" adlı bir şeirində o "ana dili" öyrənməməyə çağırır. İlk baxışda bu fikrin mahiyyərti oxucuya aydın olmur, lakin təsvirin sonrakı gedişatı boyunca şairin milli dilə sadiqliyi insanı heyrətə gətirir. Şair gənc nəslə xitabən deyir ki, onların doğma dildən iraq düşmələrinin səbəbkarları əcnəbi dillərə meyil edən, öz dilində danışmağı özünə sığışdırmayan atalar, analardır:

Ağzınızda dilinizi döndərib

qəlbinizə, ruhunuza calayan,

qanınızda tərsinə dil açdırıb,

dilinizi ilk kəlmədən çaşdırıb

bəxtinizin boğazına dolayan

atalardı, analardı,

bu gündən

atalara, analara ağlayın,

sizinlə bir böyüyən kininizi

atalara, analara saxlayın.

Dilimizə dönmək üçün bir zaman,

zərrəsinə dönmək üçün Vətənin

"ana dili" kəlməsini unudun,

nənə dili, baba dili öyrənin. (Abdullazadə, 2003: 22)

Hər misrasından yanğı, təəssübkeşlik və vətənpərvərlik hiss olunan şeirlərə A.Abdullazadə poeziyasında onlarla misal tapmaq mümkündür.

## 2.3. Başqa ölkələrin həyatı ilə bağlı nümunələr

A.Abdullazadənin də 60-80-ci illərdə yazdığı şeirlərinin bir qismində müstəqilliyə çağırış, azadlıq mübarizəsi başqa xalqların taleyi ilə bağlı yazılmış nümunələrdə son dərəcədə cəsarətlə dilə gətirilir. Əsası haradasa əsrin əvvəllərində, əsərlərinin mövzusunu Azərbaycandan uzaqlardan götürən dahi Hüseyn Cavid tərəfindən qoyulan bu tendensiyaya XX əsr Azərbaycan şairlərindən S.Vurğun, R.Rza, B.Vahabzadə, Ə.Kərim, V.Səmədoğlu və başqalarının yaradıcılığı üçün aktual olmuşdur. A.Abdullazadənin "Baham adaları", "Qaraçılar", "Azadlıq (Havanaya)", "Havanalı bir ana", "Bir qitə balladası (Amerika)" və s. kimi şeirləri bu qəbildən olan poetik nümunələrdir. "Baham adaları" (1966) şeirində okeanın ortasında bataqlıqlar içində, iqlimi və təbii şəraiti çox pis olan bu adalara həsəd səslənir sanki:

Köksündə qızılın olsaydı,

Yaxud qızıla bərabər uranın, qazın olsaydı,

Çoxdan axışardılar qoynuna,

Əvvəl bir yekə minnət qoyardılar boynuna,...

Səndən də bərbad yerləri "abad" eləyiblər

Baxmayıb küləyinə, palçığına, istisinə,

Göz tutub gəlirin tüstüsünə

yaradıblar, qurublar,

Sonra da

ədəb-ərkanla çıxıb

boynunda oturublar... (Abdullazadə, 1969: 44)

Əslində müəllifin kimə və nəyə işarə etdiyini anlamaq üçün o qədər də arif olmağa gərək yoxdur. Müstəmləkəçilik əleyhinə yazılsa da, buradakı sərvətlərə köksü talan olunub, dağ çəkilən, "abad" olmaq adıyla bərbad edilən Azərbaycandır. Təqribən eyni dövrdə, eyni mövzuda yazılmış "Bir qitə balladası" (1966-67) şeiri Amerikanın yerli əhalisi olan hinduların həyatının təsviri müəllifin azadlıq haqqında lirik-fəlsəfi düşüncələrinin ifadəsidir. Ağdərili müstəmləkəçilərin əliylə məhv edilən, torpağı, sərvətləri, milli kimliyi talan olunan, "yersiz gəldi, yerli qaç"ın növbəti qurbanı olan, haqlıykən haqsız duruma salınan hindulara "Amerika" deyə xitab edərkən şair yenə də Azərbaycandan yazır. Buradakı "sən baxmayıb saçlarının sarısına" (Abdullazadə, 2020: 236), "Ağ bənizlər ağ etdilər" (Abdullazadə, 2020: 240) ifadələrində müstəmləkəçilərin ümumiləşmiş obrazı gizlənmişdir:

Elin gedib,

Dilin gedib,

Nə dinməyə sözün qalıb,

Nə görməyə gözün qalıb.

Dodağına

"Sus" kəlməsi yapışdırıb

bağlayıblar,

Gözlərini qapayıblar

Mədəniyyət pərdəsilə.

Düşünürsən, dinmək olmur.

Bu qapanmış gözlərinlə

Hey baxırsan, görməyirsən –

göz yorulmur.

Sən baxırsan

Var-yoxunu talayırlar,

Diri-diri
Sinəndə od qalayırlar –
sən baxırsan...
Qara rəngin solub gedir,
Nəsillərin zaman-zaman
ölüb gedir,
sən baxırsan. (Abdullazadə, 2020: 242)

Şair Baham adalarının, Amerikanın yerli sakinlərinin şirniklənərək mala-mülkə satılmaları, Avropaya bir qarın çörək – iş dalınca səpələnən, bir vaxtlar dünyaya hakim olanların "qullara qul olan" taleyinə acıyır, onları mübarizəyə səsləyir.

### 2.4. Mövzusu Türkiyə həyatı ilə bağlı nümunələr

Arif Abdullazadə 70-ci illərin əvvəllərində Türkiyədə tərcüməçi kimi işləmiş və bu onun yaradıcılığında məhz Türkiyə mövzulu əsərlərin yaranması üçün mənbə rolunu oynamışdır. Şair özünün Türkiyə həyatını əvvəlcə belə qələmə alır:

Yarıda buraxıb Vətənli ömrümü
gəlmişəm Türkiyənin
büllur sabahının,
günəşli gecələrinin çilçirağını
yandıranlarla,
çiyin-çiyinə çalışmağa,
ulusunla, ellərinlə əl-ələ
dünyanın sürətilə yarışmağa. (Abdullazadə, 1979: 74)

70-ci illərin axırlarında Arif müəllim Türkiyə mövzusunda şeirlər yazmağa başlayanda hələ bu mövzu Azərbaycan sovet ədəbiyyatı üçün yeni idi. Həmin illərdə Türkiyə mövzulu əsərlərin sayı barmaqla sayılacaq qədər az idi. Elçinin "Yaxın-uzaq Türkiyə" adlı yol qeydləri bir müddət idi ki, öz yeni mövzusu, əlçatmaz, haradasa ekzotik bir ölkə sayılan Türkiyəyə marağın daima artması kimi əks-sədaya səbəb olmuşdu.

Arif Abdullazadə yuxarıda da qeyd etdiyimiz kimi, bir müddət bu əlçatmaz, ünyetməz kimi görünən ölkədə yaşamışdı, oradakı yaşam tərzinə, ictimai-siyasi proseslərə, milli xüsusiyyətlərə, hətta milli mətbəxə də az-çox bələd idi. Bu illərdə o əsasən sovet vətəndaşı kimi bir kapitalist ölkəsində baş verənlərə maraqla yanaşır, müəyyən mənada iki quruluş arasında müqayisə aparır. Ədibin belə müqayisə və müşahidələrinin yer aldığı şeirlərindən biri "İstanbulda bir uşaq"dır (1972). Bu nümunədə müəllif sanki uzun müddət Azərbaycan ədəbiyyatında dəbdə olan müstəmləkə ölkələrində ağır zəhmətə qatlaşmağa məhkum olan səfil uşaqların taleyi mövzusuna yenidən qayıdır. Lakin bu ilk baxışda belədir, mövzu oxşar seçilib. Həcmcə o qədər də böyük olmayan bu nümunəni diqqətlə oxuduqdan sonra şeirin ideyası bizə daha aydın görünür. Həyatın çətinlikləri ilə barışmış, başının çarəsinə baxmağı bacaran bu hazırcavab türk cocuğu müəllifdə və eyni zamanda oxucuda yazıqlıq duyğusunu yox, əksinə heyrət və hörmət hissləri yaradır. Ilk öncə bu balacanın halına acıyan şair onunla həmsöhbət olmaq, vəziyyəti, kimliyi ilə maraqlanmaq istəyir, adını soruşduqda uşaqdan yaşına uyğun olmayan belə bir cavab alır:

Adımı neyləyirsən,

Bir şey al, ağabəy, sən,

Pulun olsa,

dünyada

Adsız da keçinərsən,

Pulun olsa,

dünyada

Ad-san da özü gələr,

Yaşamalı, görməli

Dövran da özü gələr. (Abdullazadə, 1979: 32)

Həyatın bərk-boşundan çıxmış daha praktik, zaman, pul, ad-san haqqında yetkin təsəvvürləri olan uşaq qısa sürən dialoqun sonunda müəllifi bir daha heyrətləndirir:

Bəs qazancın nə qədər?

Sənin verdiyin qədər,

Onun verdiyi qədər,

Allahın verdiyi də

Bir candır

Bizə yetər,

Yetər ölənə qədər. (Abdullazadə, 1979: 32)

Vaxtın dəyərini bilən bu uşaq atrıq öz işinə o qədər bağlıdır ki, o həmyaşıdları kimi oyun və əyləncə dalınca yox, məhz zaman dalınca qaçır. Müəllif 1990-cı ildə yenidən İstanbulda olarkən bu mövzuya bir daha müraciət edərək "İstanbulda bir uşaq (18 il sonra)" adlı daha bir şeir yazır. Şair oxucusunu bu şeirdə köhnə tanışı ilə yenidən qarşılaşdırır, bir zmanlar küçələrdə məndil satan uşaq, işgüzarlığı ilə artıq böyük bir mağazanın sahibidir. Şairin sualları dəyişməməmişdir, o müsahibinin adını öyrənməkdə nə qədər israrlıdırsa, qarşı tərəf öz hazırcavablığı ilə cavabdan yayınmağa bir o qədər israrlıdır.

Adınız nə, əfəndim?

Adımı neyləyiriz?

Mənim ki, şər dünyada

Yox bir kələyim, fəndim,

Safdı, düzdü hər işim....

Axı ad da, soyad da

Pula biçilir indi,

Pulla ölçülür indi... (Abdullazadə, 2003: 169)

Arif Abdullazadənin qadağa illərində cəsarətlə yazdığı əsərlərindən biri "Türklər" (1976) adlanır. Həcmcə çox da iri olmayan bu nümundə ortaq türk dastanlarındakı türk obrazının - "gözü qan dolu", "üzü tüklü" "bu türklər"in - bir zamanlar cəsarəti və mərdliyi ilə geniş coğrafiyaya hakim olmasından, lakin şairin yaşadığı zamanda təəssüf ki, öz yurduna kənardan baxmasından, öz yurdunda qərib olmasından və s. bəhs olunur. Müəllif əslində yaşadığı ölkədə sovet ağalığının, əsarətinin mövcudluğundan gileylənir, lakin diqqəti yayındırmaq üçün güzaran dalınca Avropaya səpələnmiş türklərə acıyır. Bir zamanlar ağa olanların, indi hansısa ağalara sığınmasına

acıyır. Şairin cəsarəti, iti müşahidəsi başqa əsərlərdə də özünü göstərir. Ədib "İstanbulda"(1971), "Bursada"(1976), "Torpaq"(1975) kimi şeirlərində Türkiyə təbiətini, onun tarixini, onun insanının yaşamını nə qədər vəsf etsə də, "Anama məktub", "Bir ilin həsrəti", "Mühacirətdə" kimi şeirlərində qəribliyin dadını bilən birinin vətən həsrətini daha niskilli bir dillə qələmə alır.

Arif Abdullazadənin Nazim Hikmətə həsr etdiyi bir çox şeirlərində - "Nazim şeir oxuyurdu", "Nazimə məktub", "Nazimlə görüş", "Yüz yaşlı həmişəcavan Nazimə", "Yeni şeirlərin" və s. şeirlərində qəribliyin, vətənsizliyin dadını dadan, uzaqdan gözqamaşdırıcı bir işığın ardınca gəlib ömrünü itirən, həqiqi azadlığını itirən şairin obrazı bir-birindən maraqlı boyalarla əks olunur.

## 2.5. Ölüm və həyat motivlərinin yer aldığı nümunələr

Həyat, kainat, yaşam, ömür, ölüm, arzu, təklik kimi poeziyanın əbədi mövzularına müraciət edən şair kitabdan-kitaba İnsanı yaddan çıxarmır (axı poeziya insanşünaslığın əlifbasıdır). Onun "İnsanlar düşünür", "İnsan kimi", "Bir günün ömrü", "Yaxşı, yaman insanlar", "Arzulara borcumuz", "Mənimdir", "Öldürən, ölən", "Həyat fraqmentləri", "Son ölüm", "Ömrümüz", "Həyat eşqi" , "Düzlük ömrü", "Bu ölüm", "Hər şey gözəldir həyatda", "Günəş kimi bir ömür", "Dünyanın adiliyi", "Bu dünyanın işləri", "Mənim dünyam", "Mənim bu dünyada nə işim vardı" və daha neçə-neçə şeirləri müəllifin "İnsan tədqiqatı"nda əvəzsiz nümunələrdəndir.

Bu dünyaya gəlmişiksə,

Ya az, ya çox

Bu dünyada qalmalıyıq,

biz insanıq!

...Bircə sözlə,

Çiynimizdə ömür adlı bu şərəfli,

ağır yükü

borcumuzdur, daşıyırıq,

Bu dünyada yaşamaq da

Bu dünyaya borcumuzdur –

yaşayırıq,

biz insanıq! (Abdullazadə, 1979: 31)

Bu misralar Arif Abdullazadənin ilk şeirlər kitabı "Arzular"a daxil etdiyi "Borcumuz" adlı proqram xarakterli şeirdəndir. Şair yazır ki, gələn yaşamalıdır, çünki dünya məhz insan üçündür. Söz yox ki, insan ömrü nahəmvardır, onun yaşam boyunca çoxlu enişi-yoxuşu var. Əslində ömür dediyin bu eniş-yoxuşların arasındadır. Şeirin bir hissəsində yer alan "şəhərlər yaratmalı, biz saraylar tikməliyik" misraları sosializm quruculuğunun şüarçı poeziyasını xatırlatsa da, sonrakı misralarda ana fikir aydınlaşır:

Hər gün ömür dəftərində

Təzə bir söz yaratmalı,

köhnə bir söz silməliyik,

biz insanıq! (Abdullazadə, 1979: 32)

Sanki bu misralarla "insanşünaslıq" sahəsində ilk qədəmlərini atmağa başlayan şairin poetik axtarışları zaman keçdikcə "bərkdən-boşdan çıxır", dünyanın düz üzü ilə yanaşı min bir tərs üzünü də görən, "görə-görə" yaşayan və yaşlanan müəllifin özü kimi misraları da tündləşir, ağırlaşır, onlar zamanla daha ötkəm səslənir:

Bir-bir seçilməsə ömürdə qış, yaz,

Bəxtinin dərsinə adi bir üç yaz,

Ulduz tək yanmasan, işığın uçmaz,

Özünə nur saçmaq çıraq işidir. (Abdullazadə, 1988: 37)

Həyatda göyərən daş olmalısan,

ömrünü sabaha daşımalısan,

bəxti sona qədər yaşamalısan,

dünyaya baş çəkmək qonaq işidir. (Abdullazadə, 1988: 38)

Misralardan görünür ki, şair bu dünyaya sadəcə gəlib-getməyi, "baş çəkməyi" dünyanın əbədi sakini, ev sahibi saydığı İnsana yaraşdırmır, onu həyatı həyat kimi yaşamağa – göyərməyə, sabah da yaşamaq haqqını qazanmağa çağırır. Bəs görən şairə görə İnsana

sabah da yaşamaq haqqını verən nədir? Bəlkə bugünkü əməlləri? Bəlkə dünyaya gətirdiyi, tərbiyə etdiyi nəsil? Bəlkə də yazıb-yaratdıqları, düzüb-qoşduqları? Hiss olunur ki, bu misraları yazarkən şair üçün həyatın anlamı birmənalı şəkildə "çiyinlərində ömür adlı ağır yükü çəkmək" cəsarətidir.

Ədəbiyyatşünas alim və şair A.Abdullazadə burada oxucunun diqqətini "Kim yaşayır?", "İnsanı yaşadan, ölməzliyə qovuşduran nədir?" kimi fəlsəfənin əbədi diskussiyaya səbəb olan suallarına çəkir və burada da ədəbiyyatın vasitəsilə tərbiyə metoduna dayanır. 60-cı illər ədəbi prosesi üçün bu xarakterik haldır. Qeyd edək ki, yaşamağın məna çalarları rəngarəngdir və bu, daim ədəbiyyatın diqqət yönəltdiyi anlayışlar cərgəsində özünə yer almışdır. Yaradıcılığının ayrı-ayrı dövrlərində A.Abdullazadə insan yaşamının müxtəlif stadiyalarına fərqli şəkildə münasibət bildirir, hər nə olursa-olsun, insan yaşamında bir məna axtarmağa çalışır.

Hiss olunur ki, bir zamanlar dilindən düşməyən "mavi axşamlar", "çəhrayı röyalar", "bəyaz şaxtalar"ın romantikası artıq şairi özünə çəkmir. "Dünya dünya boyda qayğılarıyla" onu elə yormuşdur ki, son şeirlərindəki misralar heç də süni səslənmir, oxucu duyum dolu bir ürəyin bir an belə tərəddüd etmədən dünyanı tərk edəcəyinə şübhə etmir: " Bu ömür o qədər uzun sürdü ki", \\ "Mən bu həyat üçün çoxdan ölmüşəm", \\ "Bir də bu dünyaya gəlməyə tövbə", \\ "Adım da qalmayıb ölümdən başqa", \\ "Mənə ölüm arzula, Bezdim hər gün ölməkdən", \\ "Ölüm məktubları yazıram artıq" kimi misralarda ümidsizlikdən daha çox yorğunluq hiss olunur desək, yanılmarıq. "Arzular"dan başlanan uzun yol nəhayət müəllifin son sözü kimi "Tövbə duaları"nda tamamlanır (əslində tamamlanmır, onu bundan sonra da oxuyanlara ünvanlanır):

Haraya baxdımsa milçək sürüsü,

Bir-bir adam olur heyvan kürüsü,

Az qalıb dünyanı təklik bürüsün,

Tövbə bu adada keçən ömrümə,

Itəm, həyat desəm belə ömrə mən.

Zaman taleyimi içindən oydu,

Ömür tabutuma tərsinə qoydu,

Gəlişim matəmdi, gedişim toydu,

Tövbə, Ömür adlı kəlməyə tövbə,

Bir də bu dünyaya gəlməyə tövbə. (Abdullazadə, 2003: 199)

## 2.6. Yaradan və İnsan Paralelizminin Yer Aldığı Nümunələr

Daha əvvəl də qeyd etdiyimiz kimi, Arif Abdullazadə 60-cı illərdə ədəbiyyata gəlmişdir və bu dövr ədəbiyyatı üçün Azərbaycan ədəbiyyatında Tanrıya səslənmə, onunla söhbətləşmə aparıcı mövzulardandır. Vaqif Yusifli yazır: "Arif Abdullazadəni bir şair kimi səciyyələndirmiş olsaq, vaxtilə dəbdə olan "fikir şairi" adlandıra bilərik. Hər bir şeirində o, mətləbi müəyyən və konkret bir fikir üzərində qurur". (Yusifli, 2014) Bu fikri onun Allaha müraciət dolu şeirlərində də müşahidə edə bilərik: "Tanrım, məni başdan yarat", \\ "Tanrımla bir gündə doğulmuşam mən", \\ "O kimə tanrılıq edəcək axı, \ Bir gün bu dünyada mən də olmasam?!", \\ "Allah bu dünyada birincidirsə, \ Bəs onun adını kim qoydu, nə vaxt?!", \\ "Bir tanrım var dili yox", \\ "Allahın da bir gün baxtı yatanda", \\ "İnsan canın, ömür bəxtin quludu, \ Məni məndən ayırmayın son anda", \\ "Hələ Tanrının da öz Tanrısı var", \\ "Alnımdakı yazıların \ Bir misrası Tanrıdandı, \ Qalanını özüm yazdım",\\ "Düzünü deyəndə İnsan inciyir, \ Yalan söyləyəndə uca Allahım". Həqiqətən də, bir xitab – bir müraciət obyekti olan bu nümunələr tamamilə fərqli mətləblərlə bağlıdır. Bir olan Tanrıya Abdullazadənin qələmində onlarla prizmadan baxılır.

Şairin Tanrıya, Yaradanına olan münasibəti müxtəlif zamanlarda insanlığın inanc və əqidə baxımından keçdiyi, yaşadığı bütün inam və tərəddüdünü özündə əks etdirir. Ədibin misralarında Tanrıya qəlbən, bütün varlığı ilə ianənan, Yaradanını sevən və ona sığınan, tapınan, dua edən bəndə ilə yanaşı, hələ inancını tapa bilməyən, içində tərəddüdlər, şübhələr olan, eyni zamanda Tanrının varlığına həm də üsyan edən bir insanı görürük. Deməli, A.Abdullazadə qələminə aid olan ayrı-ayrı nümunələrdə Tanrıya münasibətdə qarşımıza çıxan ziddiyyətli fikirlərdə (yalvarış, heyrət, tapınma, ittiham, şükranlıq və s.) hardasa müəllifin Tanrıya subyektiv münasibətindəki fərqlilik yox, İnsan düşüncəsi və qəlbində Yaradana olan çoxsaylı yanaşmalar ifadə olunmuşdur və bu rəngarəngliyi və ziddiyyəti fərqli formalarda ədəbi materialda ifadə etmək bacarığı

müəllifin İnsandan yazarkən peşəkarlığından və bədii istedadının gücündən xəbər verir.

Arif Abdullazadənin "İlk bayraq", "Ruhani", "Sözün düzü", "Ömrün qürbəti", "Ömrümə son söz", "Elegiya", "Ölü, diri ölümlər", "Tanrımla bir gündə", "Mənsiz qalanlara", "Tanrı dünyası", "Haqqın səhvi", "Dünyanın haqq günü", "Vaxtsız qonaq", "Yeddinci qatda", "Alın yazıları", "Adam toplusu", "Rəngli röya" adlı şeirlərində, "Böyük şəhərlərin böyük dərdləri", "Ulduzların karvan yolu", "Cənnətdən məktublar", "Son yolların sınağına son sözüm" və b. poemalarında şairin Allaha fərqli münasibəti, müraciəti və s. ifadə olunmuşdur. Bu poetik nümunələrdə folklordan, klassik ədəbiyyatdan gəlmə Allaha müraciət, eləcə də 60-cı illər poeziyamızçün xas olan Tanrı ilə "söhbətləşmə" tərzində yazılan şeirlərin kifayət qədər izləri müşahidə olunsa da, Arif Abdullazadə kimsəni təqlid etmir, "öz tanrısı ilə özü danışır":

Alnımdakı yazıların

Bir misrası Tanrıdandı,

Qalanını özüm yazdım. (Abdullazadə, 2003: 252)

və yaxud

Bu dolaşıq gerçəyi

bircə Yaradan bilir,

Bir də onun yazdığı

Alnımdakı bir misra. (Abdullazadə, 2003: 268)

Arif Abdullazadənin "Tanrı dünyası" adlı şeiri onun Uca Yaradana münasibətinin daha geniş şəkildə əks olunduğu nümunələrdəndir. Şeirdə oxuyuruq:

Hələ dinlərdən də, ayinlərdən də

milyon il qabaq

Tanrı həm yaşayıb, həm də yaşadıb.

Peyğəmbərin yoxsa, uydurmalısan,

Səsini, hissini uca Tanrıya

Onun nəfəsiylə duydurmalısan. (Abdullazadə, 2003: 175)

Bu şeir daha əvvəl adını çəkdiyimiz "Haqqın səhvi" adlı nümunə ilə müəyyən qədər yaxınlıq təşkil edir. Burada da şair tanrının hər cür din və ideologiyadan daha əzəli olduğunu, insanın tanrıya çatmaq, səsini duyurmaq üçün dinlər, əqidələr, hətta peyğəmbərlər uydurduğunu yazır:

Hələ Tanrının da öz tanrısı var,

Bütün kainatı ovcunda saxlar. (Abdullazadə, 2003: 175)

Bu şeirdə ədib deyir ki, insanların hamısının Yaradana münasibəti eyni olmur. Saf qəlblə iman gətirənlər, yaradanını məmnun edən, gözəl bir əxlaqın, saf və təmiz diləklərin sahib olanlar tanrının sevdiyi qullarıdır və Tanrı sevdiklərini Cənnətlə mükafatlandırır:

Səsin təmizdirsə, duyğun safdırsa,

Zərrədən bir işıq şöləndirib

Uzaq ulduzlara soraq aparar,

...Tanrının da günəş gözləri gülər... (Abdullazadə, 2003: 175)

**2.7. Tənhalıq və təklik mövzulu şeirlər**

Məlumdur ki, 60-cı illərdən başlayaraq poeziyada insanın onu əhatə edən mühit, ayrı-ayrı fərdlərarası münasibətlər, mövcudluğun və varlığın mahiyyəti tez-tez dilə gətirilir. İnsandan söz düşəndə artıq sözügedən dövrdə əvvəlki mərhələdəkinin əksinə insan kollektivin bir parçası, ümumxalq işinin yorulmaz bir hissəsi kimi qəbul olunan insan yada düşmür, onun yerini fərd və onun yaşantıları tutmuşdur. Fərdin ən gerçək yaşantısı kimi aparıcı şairlər daha tez-tez yalnızlıq, tənhalıq və təklikdən söz açmağa başlayırlar. Tənhalıq dərkedilməzlik, fərqlilik, ayrıcalıqla assosasiya olunduğundan A.Abdullazadə qələmində insan təkliyi Tanrının təkliyi ilə tez-tez müqayisə zamanı "Özü kainatda tək qaldığından \ Bizi də qoynunda təklədi dünya" kimi misralarda ifadə olunur.

Tənhalıq mövzusu şairin ilk çap olunmuş kitabı "Arzular"a daxil olan eyniadlı şeirdən başlayaraq, demək olar ki, bütün yaradıcılığı üçün xarakterikdir. Müəllifin şəxsi həyatından və xarakterindən gəlmə tənhalıq, anlaşılmazlıq, qəribəlik və qəriblik ab-havası zamanla onun poeziyasının ana xəttini təşkil edir. O insan təkliyini hər şeyə və hamıya münasibətdə açıqlamağa çalışır: "Tənhalığın baxtı göydən uzaqdı", \\ "Tənhalıq dünyanın ilk

möcüzəsi", \\ "Tənhalıq insanın öz içindədi",\\ "Bu tənha dünyaya tənha gəlmişdim", \\ "Elə tənhalıq da bir növ nəşədi" kimi A.Abdullazadənin müxtəlif şeirlərindən götürülmüş müxtəlif misralarda tənhalığın şair qələmində necə qatılaşdığını aydın hiss etmək mümkündür. Nümunələrə baxdıqda şairin gah rasional məntiqə sədaqəti, gah da qəlbin dərin və kövrək çırpıntıları sezilir, şair düşünür, lakin hissindən uzaqlaşmadan. Sanki onun qələmində bir çox mətləblər kimi tənhalıq da min bir çaları ilə önə çıxır. Son şeirlərində "Bir də bu dünyaya gəlməyə tövbə" deyən şair gah tənhalığını qınayır, gah özünü uca Yaradanın tənhalıq qatı ilə bərabərləşdirərək ucalır, gah da tənhalığına sığınır, təsəlli tapır. Maraqlısı budur ki, oxucu hər bir halda şairin səmimiyyətinə şübhə etmir. Altmışıncıların ümumi fikir axınından sapmasa da, Abdullazadə özünəməxsus deyim tərzi ilə "Hər şey gözəldir həyatda" və "Bir də bu dünyaya gəlməyə tövbə" dilemması arasında müxtəlif variasiyalarda həyatı, insan yaşamını vəsf edir.

**Nəticə**

Tədiqatımızn nəticəsi olaraq söyləyə bilərik ki, göstərilən təsnifat A.Abdullazadə poeizyasında yer alan nümunələri tamamilə əhatə etmir. Bunlardan əlavə, onun yaradıcılığında Cənubi Azərbaycan, şeir-sənət adamlarının həyatı, ana, ana dili və digər mövzulara dair çoxsaylı nümunələr də yer alır ki, onların bir qismi yuxarıdakı təsnifat daxilində öyrənilə və eyni zamanda müstəqil mövzu istiqaməti kimi də tədqiq oluna bilər. Arif Abdullazadə poeziyası fikir poeziyası olmaqla janr və obrazlılıq baxımından orijinallığı ilə seçilir. Onun poeziyasının qaynağında qədim folklor qatları və çoxəsrlik Azərbaycan ədəbiyyatı ilə yanaşı çağdaş poeziyanın yeni çağırışları da yer almaqdadır.

Qənaətimizə görə, Arif Abdullazadə bir sıra ədəbiyyatşünasların da vurğuladığı kimi, daim inkişafda olan, son ana qədər axtaran bir şair idi. O daim inkişafda olsa da, siyasi ab-hava və ədəbi sifarişə tabe olmur. Bu səbəbdən də, demək olar ki, ilk işıq üzü görən şeirlərindən başlamış son misralarına qədər yeni bir mövzu yoxdur. Təqribən 40 ildən artıq sürən yaradıcılığı boyunca şair ilk gəncliyində qədəm basdığı yolundan sapmır, onu maraqlandıran, marağında, axtarışında olduğu heç nəyi tərk etmir, əksinə daha böyük həvəs və inadla axtarır, dilə gətirir. Fikrimizcə, təmsil etdiyi

altmışıncılar nəslinin ruhunun tam dərki üçün A.Abdullazadə poeziyasının geniş öyrənilməsində fayda var.

**Kaynakça**


ABDULLAZADƏ, Arif (1964). Arzular. Bakı: Azərbaycan Dövlət Nəşriyyatı.

ABDULLAZADƏ, Arif (1969). *Hər yerdə, hər zaman*. Bakı: “Azərnəşr”.

ABDULLAZADƏ, Arif (1979). *Sevin Azərbaycanı.* Bakı: “Gənclik” nəşriyyatı.

ABDULLAZADƏ, Arif (1986). *Duyum.* Bakı: “Gənclik” nəşriyyatı.

ABDULLAZADƏ, Arif (1988). *Bəxtimizin kitabı*. Bakı: “Yazıçı” nəşriyyatı.

ABDULLAZADƏ, Arif (2003). *Tövbə duaları.* Bakı: “Çaşıoğlu”.

ABDULLAZADƏ, Arif (2020). *Qatarla uşmaqdan yorulan durna*. Bakı: “Mücrü” nəşriyyatı.

AXUNDOV, Ağamusa (1991). “Dərin mənalar poeziyası”. A.Abdullazadə. Seçilmiş əsərləri. Bakı: “Azərnəşr”, s.3-8

NƏBİYEV, Bəkir (1966). “Könüllərin dünyası”. “Ədəbiyyat Qəzeti”. (26 noyabr 1966), № 48, s.3

YUSİFLİ, Vaqif (2014). “Arif Abdullazadə: Ədəbiyyatımızın cəfakeşləri silsiləsindən”. “Ədalət” qəzeti, (26 noyabr, 2014), s.6


**Etik, Beyan ve Açıklamalar**

**1.** Etik Kurul izni ile ilgili;

☑ Bu çalışmanın yazar/yazarları, Etik Kurul İznine gerek olmadığını beyan etmektedir.

▢ Bu çalışmanın yazar/yazarları, …………………….. Üniversitesi ……………….. Etik Kurulu’nun tarih ……….. sayı ………. ve karar………. ile etik kurul izin belgesi almış olduklarını beyan etmektedir.

**2.** Bu çalışmanın yazar/yazarları, araştırma ve yayın etiği ilkelerine uyduklarını kabul etmektedir.

**3.** Bu çalışmanın yazar/yazarları kullanmış oldukları resim, şekil, fotoğraf ve benzeri belgelerin kullanımında tüm sorumlulukları kabul etmektedir.

**4.** Bu çalışmanın benzerlik raporu bulunmaktadır.